


# Mərd, qayğıkeş, səxavətli

## *Şəhid Bəhruz İsgəndərovun həyat hekayəsi*



**Şəhidlərimizin hər biri millətimizin qürur və fəxr mənbəyidir. Onlar vətənin azadlığı və müstəqilliyi uğrunda həyatlarını qurban verərək, öz adlarını tarixə qızıl hərflərlə yazdılar. Hər bir şəhidin həyatı, keçdiyi yol, göstərdiyi qəhrəmanlıq bizə qürur bəxş edir, eyni zamanda millətimizin əyilməz ruhunu, mübarizə əzmini göstərir. Onların fədakarlığı sayəsində bu gün biz sabaha daha ümidlə baxa bilirik. Şəhidlərimiz bizim daimi ilham mənbəyimizdir və onların əziz xatirəsi heç vaxt unudulmayacaq.**

Şəhid İsgəndərov Bəhruz Abbas oğlu 1986-cı il noyabrın 29-da anadan olub. 2002-ci ildə Gəncə şəhər 17 nömrəli tam orta məktəbin 9-cu sinfini bitirib, təhsilini Bakı Texniki Kollecində davam etdirərək "Avtomobil və maşınqayırma" ixtisasına yiyələnib. 2015-ci ildən müddətdən artıq hərbi qulluqçu kimi xidmət etməyə başlayıb. Bəhruz İsgəndərov Azərbaycan Sülhməramlı Qüvvələrinin tərkibində Əfqanıstanda da xidmət edib, oradan medalla qayıdıb. Kiçik çavuş Bəhruz İsgəndərov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsində və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunmasında tarixi qələbə qazanılan Vətən müharibəsi zamanı Cəbrayıl, Qubadlı və Laçının azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib, öz qəhrəmanlığı ilə fərqlənib. Bəhruz İsgəndərov oktyabrın 29-da Laçın döyüşləri zamanı şəhid olub. Gəncə Şəhidlər Xiyabanında dəfn edilib.

**Şəhidin anası Lalə xanım oğlunu xatırlayaraq deyir:** "Sentyabrın 27-si Bakıda təlimdə idi. Elə oradan da döyüşə getdi. Tez-tez əlaqə saxlayırdıq. Oktyabrın 15-də qızı dünyaya gəldi, adını da özü qoymuşdu... Mədinə... Lakin uşağının üzünü də görə bilmədi... Oktyabrın 28-i günü zəng vurub dedi ki, çalışacam ki, görüntülü danışaq. Ertəsi gün şəhid xəbəri gəldi".

Ananın oğul yarası hələ qaysaq bağlamamış, ürəyində ikinci yara da açılıb: "Qardaşı Pərviz ondan üç yaş böyük idi. Sentyabrın 25-i günü anım gününə hazırlıq etmək istəyirdi. Darvazanın üstündə bayraq var idi, onu dəyişmək istəyirdi. Özünün də toyunun 5 illiyi idi. Həmin günü 25 sentyabrda Pərviz yıxıldı. 13 gün komada qaldı, sonra dünyasını dəyişdi. İndi o da xiyabanda qardaşına yaxın yerdədir. Şəhidimiz tək deyil, qardaşı da onunla bir yerdədir.

Mən həmişə Bəhruza deyirdim ki, 29 rəqəmi sənin üçün düşərlidir. Dünyaya gəlibsən, işə də ilk dəfə bu tarixdə gedibsən. Əfqanıstandan evimizə 29-u qayıdıbsan. Mən elə bilirdim, elə həmişə 29 ona düşərli olacaq. Amma 29-u günü şəhid xəbəri gəldi. Axıra kimi düşərli olmadı... O, Allahın sevdiyi bəndələrdəndir. Şəhidlər ölmürlər, onların ömrü dünya qədərdir. Onlar torpağı vətən etdilər, vətəni azad etdilər, canlarını da qurban etdilər. Azərbaycan üçün özlərini qurban etdilər. Biləbilə, gülə-gülə getdilər. Nə qədər çətin olsa da, ağır olsa da, qürurvericidir. O cür oğulların anası olmaq özü qürur verir. Onlar necə bir övlad idilər, onu hamı bilir. Küçəmizə onun adını verdilər. Müharibə bitən kimi Prezidentin fərmanı ilə orden verilmişdi. Elə qərarla öz küçəmiz indi Bəhruz İsgəndərovun adını daşıyır. Məktəbdən də teztez yad edirlər...".



**Şəhid Bəhruz İsgəndərovun bacısı Sevinc xatırlayır:** "Biz ailədə dörd uşaq olmuşuq, evin böyüyü mən idim. Sonbeşiyi də qardaşım Bəhruz. Bəhruz çox sakit, təmkinli, böyük-kiçik yeri bilən idi. Mən 20 yaşında ailə qurmuşam. Evdən gedəndən sonra mənim bir sözüm olanda kiçik olmasına baxmayaraq, zəng edib qardaşım Bəhruza demişəm. O gəlib mənim hər işimə kömək edərdi. Öz işlərini atıb başqalarına köməyə qaçardı. O mənə əsl qardaş olub.

Övladım hazırda polis zabitidir. Mənim övladım nə isə hərəkət edəndə, yaxud bir məclisdə hamı deyir ki, elə bil Bəhruzdur, onun xasiyyəti, hərəkətləridir... Bəhruz qonşularla, ümumiyyətlə, dostlarıyla, yaşadığı ərazidə hamıyla çox gözəl münasibəti var idi. O qədər abırlı, həyalı bir uşaq idi ki, o abrından həyasından gedib sevdiyi xanımla tanış olmamışdı... Mən özüm əczaçıyam. Hazırda Gəncə şəhərində qardaşımın adını daşıyan aptek "Bəhruz Aptek" adlanır. Onun adı daim yaşadacağıq".

**Şəhidin dostu Röyal Bayramovun** təşəbbüsü ilə Bəhruz İsgəndərov haqqında "Şəhidin hekayəsi" adlı klip də çəkilib. Dostu deyir ki, Bəhruz çox qürurlu, mərd, ailəcanlı, mehriban insan idi: "Vacib olmadıqca, kimsəyə nəyəsə görəsə ağız açmazdı. Çalışardı öz imkanı çərçivəsində hər şeyi həll etsin. Mən şəxsən Bəhruzdan çox şey öyrəndim. Kasıbçılıqla böyüməsinə baxmayaraq, çox böyük hörmət qazanmışdı. Çox küsəyən idi, günah özündə olsunolmasın gec barışan idi, bir dəfə küsmüşdük zəng eləmirdi. Getdim evlərindən çağırdım, çıxıb məni görən kimi güldü. 2021-ci ilin sentyabr ayında maşın almışdım. Bir az borcum qalmışdı, pulu verə bilmirdim, çətinə düşmüşdüm. Həmin vaxtı Bəhruzun atası Abbas dayı məni evlərinə çağırdı. Getdim, gördüm oturub məni gözləyir. Atası soruşdu sənin nə problemin var? Dedim nə olub ki? Dedi gecə Bəhruz yuxuma girmişdi. Cibindən pul çıxarıb stolun üstünə qoydu, dedi ki, bunu Röyala verin çətinliyi var...".

Bəhruz İsgəndərov Abbas oğlu Prezident İlham Əliyevin 15 dekabr 2020-ci il tarixli sərəncamları ilə III dərəcəli "Vətənə xidmətə görə" ordeni, "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Laçının azad olunmasına görə" (ölümündən sonra) medalları ilə təltif olunmuşdur.

**Nurcan SÜLEYMANOVA,**
**"Respublika".**